**Azərbaycanın Tehrandakı səfirliyinə xain terror hücumunun qarşısının alınması zamanı şəhid olmuş səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edildi. Mərhum ilə vida böyük izdiham səhnəsi kimi yadda qaldı. Mərasimdə "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirildi. Elə bu şüarların sədası altında gözlərdən hadisənin təşkilatçılarına nifrət qığılcımları süzüldü, kədərimiz dərin mənəvi və milli obraz qazandı. Hərbi orkestrin ifasında Dövlət Himnimizin səsləndirilməsi, Orxanın cənazəsinin üzərindəki üçrəngli Azərbaycan bayrağının şəhidin atasına təqdim olunması kövrək səhnələr yaşatdı.**

# Böyük vida – şəhidin var, Vətən!

## *Şəhid Orxan Əsgərov torpağa tapşırıldı*









Vida mərasimində dövlət və hökumət rəsmiləri, şəhidin yaxınları, Türkiyənin Azərbaycandakı səfiri və səfirliyin əməkdaşları, ölkə ictimaiyyətinin nümayəndələri, bir çox tanınmışlar iştirak etdilər.

Yanvarın 27-də saat 08:30 radələrində avtomat silah və çoxlu sayda güllə daraqları ilə silahlanmış şəxsin Azərbaycanın İrandakı səfirliyinə qarşı xain terror aktı daha böyük itkilərlə nəticələnə bilərdi. Orxan Əsgərov və onun rəhbərlik etdiyi mühafizə xidmətinin əməkdaşları olmasaydı. Onlar hücumun qarşısını alarkən yaralandılar. Yaralananlardan biri, Vasif Tağıyev əliyalın şəkildə terrorçunun üzərinə atılaraq, qorxmaz və çevik hərəkətləri ilə onu tərksilah etməyi bacardı. Məhz bunun nəticəsində ali diplomatik missiyamızın digər əməkdaşları xilas oldu.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hadisə ilə əlaqədar özünün "Tvitter" hesabında paylaşım edərək, bu xain terror aktını şiddətlə qınadı, hücumun tezliklə araşdırılmasını və terrorçuların cəzalandırılmasını tələb etdi. Dövlətimizin başçısı, ümumən, diplomatik nümayəndəliklərə qarşı terror hücumunun qəbuledilməz olduğunu bildirdi.

Azərbaycan Xarici İşlər Nazirliyi də bəyanatında baş verənlərin terror aktı olduğunu vurğuladı və bu hücumla bağlı hərtərəfli təhqiqat aparılmasını və günahkarların məsuliyyətə cəlb olunmasını tələb etdi.

Hadisədən sonra dövlətimizin başçısının tapşırığı ilə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları və onların ailə üzvləri ölkəmizə təxliyə olundu. Onlar və ailə üzvləri, ümumilikdə 53 nəfər Bakıdan göndərilmiş xüsusi təyyarə ilə Vətənə gətirildi. Tehrandan gələn Azərbaycana məxsus təyyarə şəhidimiz Orxan Əsgərovun cənazəsini də doğma Vətəninə çatdırdı. Onu da qeyd edək ki, İran tərəfi cənazənin gətirilməsinə də müxtəlif yollarla süni maneələr yaratdı.

Qeyd edək ki, səfirliyimizə xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənildi, yolverilməz, qəbuledilməz hesab olundu. Çoxsaylı bəyanatlarda, açıqlamalarda və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi bəyan edildi.

Bəli, dini öz əməllərinə alət edənlər İslam yaranan gündən olub. Ancaq bunu bir dövlətin, özü də bütün dünyanın gözü qarşısında etməsi sadəcə dəhşətdir. İllərdir Azərbaycana düşmən mövqeydə duran, din qardaşını hər fürsətdə arxadan vuran İranın sonuncu əməli nəticəsində qəhrəman övladımız şəhid oldu. Onu səngərdə şəhid etmədilər, onun həlak olduğu yer müharibə meydanı deyildi. Şəhərin mərkəzində, özü də səfirlikdə idi... Orxan şəhidlik mərtəbəsinə ucaldı. Azərbaycan xalqının başı dikdir.

**Şəhid Orxan Əsgərovun dəfnində iştirak etmiş Milli Məclisin deputatı Naqif Həmzəyev Tehranda baş vermiş terror aktını qınadı. Deputat dedi:**

– Bu terrorun arxasında dayanan şəxslər, qruplar, bütün günahkarlar cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. İran özündə cəsarət tapıb, səmimiyyət nümayiş etdirib, istintaqı şəffaf aparmalıdır. Prosesə Azərbaycan tərəfini də cəlb etməlidir ki, biz onun nəticələrinə inanaq. Terrorun məsuliyyəti İran dövlətinin üzərinə düşür. Ölkənin bu məsuliyyətə adekvat davranacağına, ədalətli mövqe tutacağına inanmırıq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qərarı ilə İranda səfirliyimizin fəaliyyəti dayanıb. Nə zaman İran təhlükəsizliyi təmin etmək gücündə olsa, buna əminliyimiz yaransa, o zaman diplomatik missiya işini bərpa edəcək.

Şəhid vermişik, yaralılarımız var. Toplaşmağımızın məqsədi şəhidimizə ehtiramımızı bildirmək, onu son mənzilə yola salmaqdır. Dərdimiz, acımız böyükdür. Əlbəttə, bu qan yerdə qalmayacaq. Azərbaycan dövlətinin gücü və qüdrəti nəyin bahasına olursa-olsun, bu cinayəti törədənlərin layiqincə cəzalandırılmasına çatır. Terrorda əli olanlar ədalət mühakiməsinə cəlb ediləcək. Bu, gec-tez olacaqdır. Azərbaycan öz haqq yolunda irəliləyəcək və regiona dayanıqlı sülhü gətirəcəkdir. Allah şəhidimizə rəhmət eləsin, ailəsinə, yaxınlarına səbr versin.

**Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev:**

– Bu, Azərbaycan xalqının imtahanıdır. Biz tarixən belə imtahanlardan keçmişik. Əgər torpaq, Vətən uğrunda canından keçən varsa, igidlər şəhid olursa, o məmləkət yaşayır, o dövlətin bayrağı daim yüksəklərdə dalğalanır. Orxan və onun kimi minlərlə igid oğullarımız Azərbaycanın bütövlüyü, birliyi və azadlığı naminə canlarını fəda edirlərsə, deməli, ölkəmiz hər zaman var olacaq. Orxan şəhidlər bağçasının gülüdür. Biz də onun vida mərasiminə qatılmaqla, üzərimizə düşən öhdəliyi layiqli şəkildə yerinə yetirməyə çalışırıq. Bu, Vətən qarşısındakı borcumuzdur. Vətən necə Vətən olur? Dövlət nə cür dövlət olur? İgid oğulları onun yolunda gözlərini qırpmadan canlarını fəda edərkən. Hər birimiz sadiq əsgərik. Hər birimiz Orxanıq. Əsla yolumuzdan dönmərik. Azərbaycanda nəinki oğullarımız, elə qızlarımız da Vətən uğrunda mübarizəyə hazırdır.

**Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının üzvü, mərhumun qonşusu hacı Surxay Məmmədli** bildirdi ki, baş vermiş hadisə cinayətdir, terrordur və onun ölkəmizə qarşı yönəldiyi heç bir halda şübhə doğurmur. Bu qanlı olayın məsuliyyəti rəsmi Tehranın boynundadır. Hadisəni törədənlər layiqli cəzalarını almalıdır. Orxan isə Vətəni uğrunda şəhid olmaqla, əsil vətənpərvərlik nümunəsi göstərdi. Dünya onu tanıdı. Allah şəhidimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin.

**Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin icra katibi İlqar İlkin dedi ki, Azərbaycanın İrandakı səfirliyinə terror hücumu lənətlənməlidir:**

– Hadisə son 30 ildə İran cəmiyyətində ölkəmizə qarşı aşılanan aqressiyanın, kin və nifrətin nəticəsidir. Ən yüksək səviyyədə Azərbaycana münasibətdə qaralama kampaniyasının aparılmasının şahidi olmuşuq. Ötən müddətdə dövlətimiz tərəfindən İrana qarşı antipatiya yaradacaq, cəmiyyəti yönləndirəcək hansısa addım atılmayıb. Artıq yetər. İran dövləti diplomatik korpusların təhlükəsizliyinə ciddi yanaşmalıdır. Hesab edirik ki, Tehran buna görə beynəlxalq ictimaiyyət tərəfindən də qınanmalıdır.

Şəhidin dəfn mərasimində iştirak etmiş Türkiyə vətəndaşı Ali Kəsəmən də məlum hadisəni acı təəssüf hissi ilə qarşıladığını dedi. O, hadisəni, eyni zamanda, Türkiyəyə qarşı törədilmiş terror aktı kimi qəbul etdiyini dilə gətirdi. Bakıya üç günlük qonaq gəldiyini deyən A.Kəsəmən şəhidin vida mərasiminə gəlməyi özünə mənəvi borc bildiyini vurğuladı. O, Türkiyə dövlətinin və xalqının hər zaman Azərbaycanın yanında olduğunu dilə gətirdi.

Orxan Əsgərovun dəfn mərasiminə qatılmış ABŞ-da yaşayan güneyli soydaşımız, jurnalist Elyaz Yekənli də hadisənin İran dövləti tərəfindən həyata keçirilmiş terror aktı olduğunu söylədi. Onun sözlərinə görə, Tehran dairələri bu mənfur aktla Azərbaycana göz dağı vermək istəyirdi, lakin bunu bacarmadılar və bacara da bilməzlər. Çünki Azərbaycan tarixin sınağından çıxmış ölkədir. Necə oldu ki, bu terror aktı həyata keçirildi? Axı İranda hər şey ciddi nəzarətdədir. Deməli, bu, məqsədli şəkildə planlaşdırılmış cinayətdir. İranla bağlı çox bilgiyə malik olduğuma görə, əminliklə deyirəm – bu, sistemli şəkildə hazırlanmış, daha böyük insan tələfatına hesablanmış qəsddir.

İran rejimi istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsi dönəmində öz iç üzünü ortaya qoymuşdu. İndi də eyni məkrli ampluasındadır. İranın uzun illərdir Azərbaycana narkotik ixracı və bu yolla əhalinin iradəsini zəiflətmək, milli kimliyini yox etmək istəyi də məkrdir, qəzet və dərgilərində aparılan anti-Azərbaycan təbliğatları da həmçinin.

*Elçin ABBASOV,*
*Anar TURAN,*
*Elşən AĞALAR (foto),*
*"Xalq qəzeti"*